

# ŞƏRQ qapısı


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 121 (24.258)

*11 iyul 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacın dövlət katibini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolini qəbul edib.

Prezident İlham Əliyev münasibətlərimizin dərinləşdirilməsində qarşılıqlı səfərlərin önəmini qeyd edərək özünün 2020-ci ildə Vatikana səfərini və Pietro Parolin ilə görüşünü, həmçinin Roma Papası Fransiskin ölkəmizə səfərini məmnunluqla xatırladı.

Dövlətimizin başçısı Kardinal Pietro Parolinin səfərinin əlaqələrimizin genişlənməsi işinə töhfə verəcəyinə əminliyini vurğuladı.

Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu ifadə edən kardinal Pietro Parolin Roma Papası Fransiskin salamlarını və ən xoş arzularını, həmçinin ölkəmizdə katolik icmaya göstərilən diqqətə görə təşəkkürünü dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Roma Papasına çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Azərbaycanın Müqəddəs Taxt-Tacda səfirliyinin açılmasını qeyd etdi.

Kardinal Pietro Parolin səfirliyin açılmasına görə təşəkkürünü bildirdi, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təbriklərini çatdırdı.

Söhbət zamanı Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi.

Kardinal Pietro Parolin ölkəmizdə dini abidələrin bərpası istiqamətində görülən işləri vurğuladı, katolik kilsəsində aparılan bərpa işlərinə görə Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndirdi.

**AZƏRTAC**

## Türkiyənin Ali Məhkəməsinin sədri və Baş prokuroru Naxçıvanda səfərdədir







Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin dəvəti ilə Türkiyə Ali Məhkəməsinin sədri Mehmet Akarca və Ali Məhkəmənin Baş prokuroru Bekir Şahinin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında işgüzar səfərə gəlib.

Nümayəndə heyəti ilk öncə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Heydər Əliyev Muzeyinə gələn qonaqlar Ümummilli Liderin həyat və fəaliyyətinə aid fotoşəkil və eksponatlarla tanış olublar. Ulu Öndərin hər kəsə örnək olan çoxşaxəli siyasi fəaliyyəti, o cümlədən həyatının Naxçıvan mərhələsi haqqında xarici qonaqlara ətraflı məlumat verilib.

Daha sonra qonaqlar türk xalqının böyük öndəri Mustafa Kamal Atatürkün Naxçıvan şəhərində ucaldılan büstünü ziyarət edib, abidə önünə gül dəstələri qoyaraq xatirəsinə ehtiramlarını bildiriblər.

Tədbir iştirakçıları Naxçıvan şəhərindəki Şəhidlər xiyabanını da ziyarət edib, xiyabandakı "Ana abidəsi"nin önünə gül düzüb, şəhidlərin xatirəsinə ehtiramını bildiriblər. Həmçinin qonaqlar şəhidlik zirvəsinə ucalanların məzarlarını və 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş Türkiyə ordusunun bu torpaqlarda şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək tər güllər düzüblər.

Sonra Türkiyədən olan nümayəndə heyəti ilə Baş prokuror Kamran Əliyev və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli arasında görüş olub. Görüş zamanı Naxçıvanda aparılan kompleks islahatlar, yenidənqurma işləri barədə ətraflı müzakirə aparılıb.

Sonra Baş prokuror Kamran Əliyevlə Türkiyədən olan nümayəndə heyəti arasında ikitərəfli görüş olub.

Bundan sonra "Azərbaycan və Türkiyə prokurorluqlarının sərhədyanı əməkdaşlığı" mövzusunda konfrans keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, görkəmli alim Zərifə Əliyevanın, şəhidlərimizin və Türkiyədə baş vermiş zəlzələdə həyatlarını itirənlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Türkiyə və Azərbaycan Dövlət himnləri səsləndirilib. Konfransda Baş prokuror Kamran Əliyev qonaqları salamlayaraq bütün sahələrdə olduğu kimi, ölkələrimizin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın da yüksək səviyyədə olduğunu bildirib.

Ermənistanın sərhədyanı bölgədə törətdiyi ekoloji cinayətlərdən bəhs edən Kamran Əliyev Naxçıvanla sərhəddə Ermənistanın metallurgiya zavodu inşa etməsinin həm Türkiyə, həm də Azərbaycan üçün böyük problemlər yaratdığını və bunun bütün beynəlxalq aləmə ekoloji cinayət kimi çatdırıldığını bildirib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Azərbaycan və Türkiyə münasibətlərindən bəhs edərək Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətin məhz Türkiyə Cümhuriyyəti olduğunu bildirib. 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana verdiyi dəstəkdən bəhs edən Fuad Nəcəfli Prezident cənab İlham Əliyevin dövlətlərimiz arasında ***"bir millət, iki dövlət, tək yumruq"*** prinsipinin əsasını qoyduğunu, dövlətlərimiz arasında imzalanan Şuşa Bəyannaməsinin bizim dostluğumuzun, qardaşlığımızın, əməkdaşlığımızın ən yüksək zirvəsi olduğunu diqqətə çatdırıb. Azərbaycan və Türkiyə arasında reallaşan böyük infrastruktur layihələrindən bəhs edən səlahiyyətli nümayəndə Zəngəzur dəhlizinin region və dünya üçün əhəmiyyətinə toxunub.

Həmçinin konfrans zamanı Türkiyə Respublikası Ali Məhkəməsinin sədri Mehmet Akarca bütün sahələrdə olduğu kimi, sərhədyanı cinayətlərlə mübarizə məsələsində də 2 ölkə arasında məhkəmə əməkdaşlığından duyduğu məmnuniyyəti ifadə edib.

Ali Məhkəmənin Baş prokuroru Bekir Şahin, reallaşacaq Zəngəzur dəhlizinin əhəmiyyətindən danışaraq bu dəhliz vasitəsilə yaranacaq yeni ticarət əlaqələrindən bəhs edib.





Digər çıxış edənlər – Naxçıvan Muxtar Respublikası prokuroru Sənan Paşayev, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bektaşi və İqdır Vilayəti Baş prokuroru Serkan Başaran Naxçıvanın məhkəmə sistemindən, Türkiyə və Azərbaycan münasibətlərindən bəhs edərək konfransın əhəmiyyətini vurğulayıblar.

**"Şərq qapısı"**

## Azərbaycan Respublikasının Baş prokuroru Naxçıvan Muxtar Respublikasında səfərdədir



İyulun 9-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Naxçıvana səfər edib. Səfər çərçivəsində Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə muxtar respublika, Naxçıvan şəhər və digər tabe rayon prokurorluqları əməkdaşlarının iştirakı ilə 2023-cü ilin I yarımilinin yekunlarına dair



əməliyyat müşavirəsi keçirilib.

Müşavirə iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, unudulmaz xatirəsini dərin ehtiramla yad ediblər.

Müşavirədə Kamran Əliyev giriş nitqi ilə çıxış edərək Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan olunması, Ulu Öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası və Azərbaycan Respublikasında rəhbər vəzifədə olduğu vaxtlarda həyata keçirdiyi siyasi fəaliyyət, həmin dönəmdə məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi, demokratik vətəndaş cəmiyyəti və hüquqi dövlətin təsis edilməsi, inkişafı istiqamətində gördüyü işlər, prokurorluq orqanlarının inkişafına verdiyi töhfə, habelə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə, o cümlədən məhkəmə və hüquq sistemində aparılmış islahatlar, işğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma prosesləri ilə əlaqədar çoxsaylı infrastruktur layihələrinin həyata keçirilməsi ilə bağlı ətraflı



məlumat verilib.

Daha sonra çıxışda Naxçıvan Muxtar Respublikasında cinayətkarlığın dinamikasına, cinayət mühakimə icraatında insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülmüş işlərin vəziyyətinə toxunulmaqla əldə olunan



uğurlar, habelə xidməti fəaliyyət zamanı yol verilmiş nöqsanlar müzakirə edilib.

Həmçinin Naxçıvan Muxtar Respublikası prokuroru Sənan Paşayev muxtar respublikanın prokurorluq orqanları və digər-hüquq mühafizə orqanlarının istintaq, təhqiqat və əməliyyat orqanları tərəfindən 2023-cü ilin birinci yarımili ərzində görülmüş işlərin vəziyyəti barədə müşavirədə ətraflı məruzə ilə çıxış edib.

Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuror Kamran Əliyev prokurorluq orqanlarının digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə bundan sonra da üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edərək xidməti fəaliyyətin təkmilləşdirilməsi istiqamətində müvafiq tapşırıqlar verib.

Daha sonra Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşlarının iş şəraitilə yerində tanış olan Baş prokuror Kamran Əliyev “Elektron Prokurorluq İnformasiya



Sistemi”nin tətbiqi ilə də yaxından maraqlanıb.

“Prokurorluğun bütün fəaliyyət istiqamətlərini vahid bir elektron platformada birləşdirən bu informasiya sisteminin tətbiqi insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə, prokurorluğa müraciət imkanlarının genişlənməsinə, prokurorluğun fəaliyyətinin səmərəliliyinin və şəffaflığının artırılmasına, süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, aşkarlığın və operativliyin təmin edilməsinə, prokurorluq işçilərinin fəaliyyətinə nəzarətin effektivliyinin, eləcə də vətəndaş məmnunluğunun artırılmasına, elektron kargüzarlığın və elektron sənəd dövriyyəsinin təmin olunmasına xidmət edir”, – deyə Baş prokuror bildirib.




Bundan başqa, Naxçıvan Muxtar Respublikası Prokurorluğu və Naxçıvan hərbi prokurorluğuna verilən yeni kriminalistik və xidməti avtomobillərə baxış keçirilib.

Sonda xatirə fotoşəkilləri çəkdirilib.

* * *



Səfər çərçivəsində Kamran Əliyev Naxçıvan Hərbi Prokurorluğunun əməkdaşları və Müdafiə Nazirliyinin Sədərək rayonunda yerləşən N hərbi hissəsinin hərbi qulluqçuları ilə görüşüb.

Görüş zamanı Baş prokuror Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə müstəqil Azərbaycanın bütün sahələrdə durmadan inkişaf etdiyini, günbəgün daha da qüdrətləndiyini bildirərək bunun parlaq nümunəsi kimi 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın Müzəffər sərkərdəliyi altında xalqın və dövlətin sarsılmaz birliyi nəticəsində rəşadətli Ordumuzun torpaqlarımızı düşmən işğalından azad etdiyini vurğulayıb.

Prokurorluq orqanlarının tərkib hissəsi olan Hərbi Prokurorluğun, o cümlədən Naxçıvan Hərbi Prokurorluğunun əməkdaşlarının qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində əldə etdiyi nailiyyətlər, 44 günlük Vətən müharibəsi dövründə göstərdikləri fədakarlıqlar, həmçinin müharibədən sonrakı dövrdə üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirmələri yüksək qiymətləndirilib.

Vurğulanıb ki, Naxçıvan Hərbi Prokurorluğunda yaradılan şərait, peşəkar və perspektivli kollektiv, onların səmərəli iş fəaliyyəti imkan verəcək ki, qarşıya qoyulan tapşırıqlar bundan sonra da layiqincə icra edilsin.



Hərbi Prokurorluğun əməkdaşları xidmətlərinin daha səmərəli və peşəkar təşkil edilməsi üçün yaradılan yüksək şəraitə, eləcə də müasir maddi-texniki təminata və təchizata görə Ali Baş Komandan cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Daha sonra Baş prokuror əsgər və zabitlərlə görüş keçirib. Kamran Əliyev Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 44





günlük Vətən müharibəsində əldə edilmiş hərbi-siyasi Zəfərin əhəmiyyətindən bəhs edib. Sonra bir qrup hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim olunub.

* * *

“Terrorçuluq, narkotik vasitələrin qanunsuz dövriyyəsi bu saat bəşəriyyəti ən çox narahat edən məsələlərdən biridir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası xüsusi bir coğrafi məkanda yerləşir. Buna görə düşünürəm ki, Türkiyə ilə bu məsələdə əməkdaşlıq çox vacibdir”.



Bu fikirləri Naxçıvanda keçirilən Azərbaycan və Türkiyə prokurorluqlarının sərhədyanı əməkdaşlığı konfransından sonra jurnalistlərə açıqlamasında prokuror Kamran Əliyev deyib.

Baş prokuror bildirib ki, keçirilən bu konfransın əhəmiyyəti çox mühümdür:

“Bu konfransın həm siyasi, həm də hüquqi əhəmiyyəti var. Çünki son zamanlar transmilli cinayətlərin çoxalması əməkdaşlığı zəruri edir. Təbii ki, əməkdaşlıq hüquq-mühafizə orqanları arasında, xüsusilə prokurorluq orqanları arasında həm beynəlxalq, həm də regional səviyyədə həyata keçirilir. Bizim bugünkü konfransın məhz sərhədyanı prokurorların əməkdaşlığı mövzusuna həsr olunması mahiyyət etibarilə yeni bir müstəvidir. Yəni bu, iki qardaş dövlət arasında münasibətlərin hüquqi əməkdaşlıq sahəsinin daha da inkişaf etdirilməsi və təkmilləşdirilməsidir. Eyni zamanda bu, ölkələr arasında yaranmış gözəl siyasi münasibət və digər sahələrdə intensiv münasibətlərin inkişafı bizim hüquq-mühafizə orqanlarında da məhz bu səviyyədə, bu dərəcədə intensiv əməkdaşlığı zəruri edir”.

**“Şərq qapısı”**

## Şərurda şəhidin xatirəsinə bulaq-abidə ucaldılıb






Şərur rayonunun Yengicə kəndində Vətən müharibəsinin qəhrəman şəhidi çavuş Ruzi İbrahimovun xatirəsinə inşa edilmiş bulaq-abidə açılıb. Açılış tədbirində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Ceyhun Cəlilov, Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov, qazilər, şəhid ailələri üzvləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak edib.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikasında aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturunun, fəaliyyətinin və aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi, eləcə də aqrar sahə ilə bağlı problemlərin həllində müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının yerli struktur bölmələri ilə səmərəli əməkdaşlığın qurulması məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin aşağıdakı regional dövlət aqrar inkişaf mərkəzləri yaradılsın:

1.1. Naxçıvan Regional Dövlət Aqrar İnkişaf Mərkəzi;

1.2. Şərur Regional Dövlət Aqrar İnkişaf Mərkəzi;

1.3. Culfa Regional Dövlət Aqrar İnkişaf Mərkəzi.

2. Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidməti ləğv edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinin Naxçıvan şəhəri, Şərur və Culfa rayonlarında yerləşən qurumlarının əmlakı ştat vahidləri ilə birlikdə Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə verilsin.

4. Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin strukturu təsdiq edilsin (əlavə olunur).

5. Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Aparatının işçilərinin say həddi 62 ştat vahidi, dövlət aqrar inkişaf mərkəzlərinin işçilərinin say həddi 51 ştat vahidi müəyyən edilsin.

6. Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində aşağıdakı qurumlar yaradılsın:

6.1. Naxçıvan Kənd Təsərrüfatı Laboratoriyaları Mərkəzi;

6.2. "Naxçıvan Aqrar İstehsalat, Tədarük və Təchizat" Açıq Səhmdar Cəmiyyəti;

6.3. "Naxçıvan Aqrar Xidmətlər Mərkəzi" publik hüquqi şəxsi;

6.4. Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin və Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin bazasında Akademik Həsən Əliyev adına Naxçıvan Kənd Təsərrüfatı Elmi-Tədqiqat İnstitutu.

7. Nazirlik bu Fərmanın 6.1-ci bəndi ilə yaradılan Naxçıvan Kənd Təsərrüfatı Laboratoriyaları Mərkəzinin əsasnaməsini, strukturunu, əməyin ödəniş fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etsin.

8. Müəyyən edilsin ki:

8.1. bu Fərmanın 6.2-ci bəndi ilə yaradılan "Naxçıvan Aqrar İstehsalat, Tədarük və Təchizat" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra – Cəmiyyət) muxtar respublikada heyvandarlıq və bitkiçilik sahəsində kənd təsərrüfatı məhsullarının istehsalını, emalını, satışını, çeşidlənməsini, paketlənməsini və logistika xidmətini həyata keçirən, kənd təsərrüfatı məhsulları istehsalçılarını yüksək məhsuldar bitki sortlarının toxumları ilə təchiz edən, toxuma olan ehtiyacın aradan qaldırılmasını, toxum ehtiyatının formalaşdırılmasını, aqrar sahə ilə bağlı müxtəlif xidmətlərin göstərilməsini, həmçinin ərzaq məhsullarının dövlət sifarişi ilə bağlı alqı-satqı əməliyyatlarının aparılmasını, eləcə də bu sahədə fəaliyyətin təşkili üçün digər tədbirlər görülməsini təmin edən kommersiya hüquqi şəxsidir;

8.2. Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti üç üzvdən ibarət İdarə Heyəti həyata keçirir;

8.3. Cəmiyyətin İdarə Heyətinin sədrini və digər üzvlərini Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri vəzifəyə təyin və vəzifədən azad edir;

8.4. Cəmiyyətdə ümumi yığıncağın səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

8.4.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə:

1. Cəmiyyətin yenidən təşkili və ləğvi;

2. Cəmiyyətin icra orqanının yaradılması;

8.4.2. Nazirliyə:

1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılmaqla Cəmiyyətin nizamnaməsinin təsdiqi və nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;

2. bu Fərmanın 8.4.1-ci yarımbəndində qeyd edilənlər istisna olmaqla Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli;

9. bu Fərmanın 6.3-cü bəndi ilə yaradılan "Naxçıvan Aqrar Xidmətlər Mərkəzi" publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

9.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə:

9.1.1. yenidən təşkili və ləğv edilməsi;

9.2. Nazirliyə:

9.2.1. bu Fərmanın 9.1-ci bəndində qeyd edilənlər istisna olmaqla "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli;

9.3. Nazirlik:

9.3.1. "Naxçıvan Aqrar Xidmətlər Mərkəzi" publik hüquqi şəxsin nizamnaməsini, strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etsin;

9.3.2. "Naxçıvan Aqrar Xidmətlər Mərkəzi" publik hüquqi şəxsin nizamnaməsinin təsdiq edildiyi tarixdən 3 (üç) gün müddətində həmin hüquqi şəxsin dövlət qeydiyyatına alınması ilə bağlı "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq tədbirlər görsün;

9.3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

10. Nazirliyin tabeliyində olan "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin adı dəyişdirilərək "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyəti adlandırılsın.

11. "Naxçıvan Məhsulları" publik hüquqi şəxsi və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tabeliyində olan "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxsi ləğv edilərək əmlakı Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə verilsin.

12. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

12.1. Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısını bir ay müddətində təsdiq etsin;

12.2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə ləğv edilmiş Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinin bu Fərmanın 3-cü hissəsində qeyd edilən qurumlarının əmlakının Nazirliyin balansına, digər əmlakının isə Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinin sərəncamına verilməsini təmin etsin;

12.3. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

12.4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin edib iki ay müddətində Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

12.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

13. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi:

13.1. bu Fərmanın 11-ci hissəsində qeyd edilən publik hüquqi şəxslərin ləğv edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etsin;

13.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 10 iyul 2023-cü il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 10 iyul tarixli 187-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin STRUKTURU

1. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin aparatı (şöbələr və sektorlar)
2. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin regional dövlət aqrar inkişaf mərkəzləri

## Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının seçki-hesabat konfransı keçirilib, Şərur Rayon Vəkil Bürosunun açılışı olub



İyulun 10-da Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Anar Bağırovun başçılıq etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfərə gəlib. Qonaqlar əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycanın memarı Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsini ziyarət edib, Azərbaycanda demokratik hüquqi dövlət quruculuğunun müəllifi olan Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildirib, abidə önünə tər güllər düzüblər.

Sonra Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının seçki-hesabat konfransı keçirilib.

Konfransın gündəliyi qəbul olunduqdan sonra Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Anar Bağırov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının fəaliyyəti, uğurları, problemlərinin həlli məsələsinin diqqət mərkəzində saxlanılmasından, bu istiqamətdə görülən müvafiq tədbirlərdən danışıb.

Diqqətə çatdırılıb ki, Naxçıvan vəkilliyi uğurla Azərbaycan vəkilliyinə tam inteqrasiya olunur ki, bu da çox önəmlidir. Prinsipial olaraq qərar qəbul edildi ki, naxçıvanlı vəkillərimiz, ümumilikdə, respublika üzrə fəaliyyət göstərsinlər. Naxçıvanda vəkillərin sayı çox azdır. Avropa Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə komissiyasının hesabatına əsasən bu gün Azərbaycanda 4500 nəfərə bir vəkil düşürsə, Naxçıvanda, təxminən, 20 min nəfərə bir vəkil düşür. Bu problemi aradan qaldırmaq məqsədilə tərəfimizdən Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyası ilə birgə vəkilliyə qəbulla bağlı elan verildi, qərar qəbul olundu. Vətəndaşların keyfiyyətli hüquqi yardıma çatımlılığı tam təmin olunmalıdır.

Anar Bağırov qeyd edib ki, əsas məqsəd formal vəkilliyin tamamilə aradan qaldırılması, vəkillərin peşə hazırlığının artırılması, müntəzəm olaraq təlim-treninqlərin keçirilməsi, təcrübə mübadiləsinin aparılması və xüsusilə də gənc hüquqşünasların vəkilliyə cəlbinə nail olmaqdır.



Sonra Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının sədri vəzifələrini müvəqqəti icra edən Vüsal Həsənov hesabat məruzəsi ilə çıxış edib. Çıxışda qeyd olunub ki, 2023-cü ilin 6 ayı ərzində kollegiya üzvləri tərəfindən 492 mülki və 466 cinayət işləri ilə bağlı müqavilə bağlanıb, həmin müqavilələr üzrə 70690 manat qonorar əldə edilib. Dövlət büdcəsi vəsaiti hesabına hüquqi yardım göstərilməsi üçün Naxçıvan Muxtar Respublikasında ibtidai istintaq orqanlarında vəkillərin iştirakı üçün 263 order, məhkəmə orqanlarında isə 202 order verilib. Hesabat dövründə 18 müqavilə üzrə vətəndaşlara pulsuz hüquqi yardım göstərilib.

Sonra təkliflər əsasında Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri üzrə namizəd səsə qoyulub. Vüsal Həsənov Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri seçilib. Vüsal Həsənov göstərilən etimata görə minnətdarlıq edib, Naxçıvanda vəkillik sahəsində irəliləyişlərin əldə olunması üçün səylə çalışacağını diqqətə çatdırıb. Daha sonra Rəyasət Heyətinin üzvləri, kollegiyanın intizam komissiyasının sədri və üzvləri təkliflər əsasında seçilib, Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının büdcəsinin, üzvlük haqqının və digər məsələlərin müzakirəsi aparılıb.

Sonra Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının Şərur Rayon Vəkil Bürosunun açılış mərasimi keçirilib. Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Anar Bağırov mərasimdə iştirak edib, rəmzi lenti kəsib. Məlumat verilib ki,



büro ümumi sahəsi 143 kvadratmetr olan, 4 otaqdan ibarət binada yerləşir. Binada vəkil bürosunun müdiri, vəkil otaqları və gözləmə zalı yerləşir, büroda əlverişli iş şəraiti üçün lazımi inventarlar quraşdırılıb.

Qeyd edək ki, Ümummilli Liderimiz Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Azərbaycan Vəkillər Kollegiyasının Tədbirlər Planı çərçivəsində hər ay olduğu kimi, iyulun 10-da da Naxçıvanda pulsuz hüquqi yardım göstərilməsi ilə əlaqədar növbəti aksiya təşkil edilib. Aksiya ilə əlaqədar "Pro Bono" Vəkil Bürosunun 5 vəkili tərəfindən vətəndaşlara hüquqi məsləhətlər verilib, həmçinin müvafiq yazılı ərizələr tərtib edilib.

***Anar Bağırov – Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri:*** – Son vaxtlar Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasında onun inkişafı, gücləndirilməsi, vəkillərin sayının artırılması və Vəkillər Kollegiyasının müasirləşdirilməsi istiqamətində bir sıra tədbirlər görülüb. Hesabat seçki ümumi yığıncağı da məhz bu sırada önəmli yer tutur. Məlum olduğu kimi, Vəkillər və Vəkillik barədə Qanunun

*Ardı 4-cü səhifədə*

tələblərinə görə, Vəkillik Kollegiyasının Nizamnaməsinə əsasən bizdə rəhbər qurumlar hər beş ildən bir yenidən formalaşır, seçilir. Bugünkü konfransda da yeni tərkib seçildi, gələcək planlar müzakirə olundu. Görüləcək işlər çoxdur. Vəkillik güclənməlidir, vəkillərin sayı artmalıdır.



Onu da qeyd edim ki, çox sevincliyəm, çünki Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda yeni Vəkil Bürosunun açılışını etdik və ümid edirəm ki, gələcəkdə Naxçıvanın bütün bölgələrində, şəhər və rayonlarında müvafiq vəkil büroları fəaliyyət göstərəcək. Vəkilliyə qəbul məsələsi davam edir. Artıq 10-dan çox namizəd sənəd verib. Təbii ki, bu bizi tam qane etmir, istərdik ki, daha çox sənəd verən olsun. Bununla bağlı müəyyən tədbirlər görülür, keçən səfər zamanı Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsi ilə əməkdaşlıq barədə memorandum imzalamışdıq. Bu memorandum bizim üçün formal xarakter daşımır, tələbələrin müraciətinə əsasən Bakıda tələbə-hüquqşünaslar arasında keçirilən məhkəmə müsabiqəsində Naxçıvan tələbələrinin də iştirakını təmin edəcəyik. Bu yaxınlarda ənənəvi olaraq Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyası, Gənclər Fondu, Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə hüquqşünas tələbələrin yay məktəbi keçiriləcəkdir. Həmçinin verdiyimiz elana uyğun olaraq hər təqvim ayının 10-da Naxçıvan Muxtar Respublikasında pulsuz hüquqi yardım aksiyaları keçirilir. Müəyyən hüquqi problemlərin həllində bu aksiyalar əhəmiyyətli rola malikdir. Hesab edirəm ki, bütün bu tədbirlər, hüquq mədəniyyətinin, hüquqi biliklərin artırılmasına, maarifləndirməyə xidmət edir, birgə fəaliyyətimizi bundan sonra da davam etdirəcəyik.

✍ **Nail ƏSGƏROV**

## Bir bulaq, bir şəlalə — Gurbulaq



*Hər damlası qayalara çırpılıb toz kimi ələnən Gurbulaq şəlaləsi bu günlərdə Şahbuzun cənnət guşəsi Kükü kəndinə gəlmiş qonaqların və turistləri buraya çəkən əsas cazibə elementlərindəndir. Yamyaşıl çəmənlikləri, ecazkar mənzərəli qayalıqları, zəngin biomüxtəlifliyi ilə təkcə ölkəmizin deyil, bütün Cənubi Qafqazın unikal məkanlarından olan Dərələyəz silsiləsinin cənub yamacı Dərəboğazı təbiət gözəli ağ şəlalə ilə süsləndikcə Naxçıvana bəxş edilmiş gözəlliklərə heyran qalmamaq olmur.*

Gurbulaq şəlaləsi, bəlkə də, milyon illərdir, yorulmadan bütün Naxçıvançay yatağında yaşayan canlıların təmiz su qaynağı olan eyniadlı bulağın gözündən, təxminən, 150 metr aşağıda kükrəyərək Araza tələsir. Bu bulaq Naxçıvanda Arazla qovuşan beş böyük çaydan biri Naxçıvançayın ən böyük qolu olan Küküçayın əsas mənbəyi, ilboyu eyni həcmdə, dəqiqədə, təxminən, 2500 litr su sərfiyyatı ilə bir təbiət möcüzəsi kimi hər kəsi təəccübləndirir. Gurbulaq tarixi Azərbaycan əraziləri Göyçə ma-



halından Araz qırağınadək olan bütün torpaqların həm coğrafi, həm də geoloji bir bütün kimi bir yerdə olması gərəkliyini sübut edən təbiət abidəsi, eyni zamanda ta qədimdən bu yana burada məskən salmış insanların yaddaşında yaşanan saf nemətdir.

Təkcə Kükünün Gurbulaq şəlaləsi və onun ətrafı deyil, Şahbuz rayonunun bütün dağlıq əraziləri kənd-yaşıl turizmi və ekoturizm üçün əlverişli məkanlardan biridir. Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı istiqamətlərində həyata keçirilən işlər, o cümlədən daxili turizmin təşviq olunması yerli əhalinin də bu gəlirli sahəyə olan marağını artırıb. Artıq Kükü̈də və Naxçıvançay vadisindəki dağ kəndlərində qonaqların rahat istirahəti və asudə vaxtlarının mənalı keçirməsi üçün müxtəlif kotteclərin inşasına, villatipli evlərin turistlərə kirayə verilməsinə başlanılıb. Bu da, öz növbəsində, əhali gəlirlərinin artmasına və sosial-mədəni infrastrukturun yenilənməsinə səbəb olur. Daxili turizm, xüsusən kəndli gənclərin öz yaşadığı yerdə məşğulluğunu təmin etməklə davamlı məskunlaşmaya da müsbət təsir edir. Bütün bunları qiymətləndirən muxtar respublika dövlət orqanları isə turizmə daha da dəstək olmaq üçün müxtəlif iri infrastruktur tədbirləri həyata keçirir, bu sahədəki fəallığı artırmağa çalışırlar. Gurbulaq istiqamətində bu ilin yazından başlayaraq çəkilən yollar və ərazi planlaşdırılması gələcəkdə Gurbulaq şəlaləsinin daha da axımlı bir turizm destinasiyasına çevriləcəyindən xəbər verir. Xüsusən həftə sonları hər gün yüzə yaxın səyahətçinin bu ərazilərə maraq göstərməsi bunu deməyə əsas verir. Gurbulaqda olarkən aldığımız məlumatda bildirildi ki, artan tələbata əsasən verilmiş tapşırıqların icrasına uyğun olaraq Kükü kəndindən şəlaləyə qədər yolun 5 kilometr hissəsində 17 min 500 kubmetr torpaq işləri görülmüş, yol yatağı genişləndirilmiş, yolun eni 6-7 metrə çatdırılmış, yola narın çınqıl döşənmişdir. Mürəkkəb relyef, yağıntının miqdarı və qar qalınlığı



nəzərə alınaraq yolboyunca 14 yerdə su keçidləri quraşdırılmışdır. Əvvəllər yalnız xüsusi avtomobillərlə keçilən yolu qısa müddətdə bütün növ avtomobillərlə getmək mümkündür. Şəlalənin ətəyindəki geniş ərazidə isə gələcəkdə turistlərin tələbatlarına uyğun olaraq hər cür sosial-mədəni şəraitin yaradılması planlaşdırılır. Artıq bir bulaq, bir şəlalə sorağına Kükü kəndinə gələn qonaqlar burada müasir bir turizm kompleksi ilə də tanış olacaqlar.

✍ **Əli CABBAROV**

## Monitorinq qrupları ilə görüş



Muxtar respublikada fitosanitar və epizootik durumun dəyərləndirilməsi üçün Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində yaradılan monitorinq qruplarının üzvləri ilə görüş keçirilib. Görüşdə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər, Səhiyyə nazirliklərinin, Dövlət Baytarlıq Xidmətinin, rayon (şəhər) icra hakimiyyətlərinin, “Naxçıvan Yaşıllaşdırma Xidməti” publik hüquqi şəxsinin monitorinq qruplarında təmsil olunan əməkdaşları və Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyinin xətti ilə sosial işlərə cəlb olunan işçilər iştirak ediblər.

Görüşü Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi aparatının rəhbəri Vüsal İbrahimov açaraq muxtar respublikada fitosanitar və epizootik vəziyyətin qiymətləndirilməsi məqsədilə monitorinq aparılan ərazilərdə bitki və bitkiçilik məhsullarının qeydiyyatının aparılması, karantin və xüsusi təhlükəli zərərli orqanizmlərin, heyvanlarda yoluxucu və digər xəstəliklərin yayılma arealının müəyyənləşdirilməsi istiqamətində görülən işlərdən danışıb.

Tədbirdə monitorinq qrupu üzvlərinin çıxışları dinlənilib. Çıxış edənlər yerlərdə müşahidə olunan xəstəlik və zərərvericilərlə mübarizə tədbirlərinin aparılması üçün vətəndaşlar tərəfindən olunan müraciətlər və bu sahədə görülmüş işlər barədə məlumat veriblər. Daha sonra hazırkı vaxta qədər aparılmış monitorinqlər zamanı müşahidə olunan xəstəlik və zərərvericilər, həmçinin aqrar sığorta ilə bağlı maarifləndirmə işlərinin aparılması müzakirə edilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Növbəti qəbul imtahanları keçirilib



*Dövlət İmtahan Mərkəzi iyulun 8-də III, iyulun 9-da isə II ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirib.*

Respublikanın 16 şəhər və rayonunda keçirilən imtahanlarda III ixtisas qrupu üzrə 18 min 620, II ixtisas qrupu (o cümlədən III ixtisas qrupu üzrə DT və TC altqruplarının hər ikisini seçən abituriyentlər üçün coğrafiya imtahanı) üzrə isə 20 min 836 nəfər olmaqla, ümumilikdə, 39 min 456 abituriyent iştirak edib. İmtahanların keçirilməsi üçün 161 imtahan binası, 2934 imtahan zalı, 161 ümumi imtahan rəhbəri, 481 imtahan rəhbəri, 3675 nəzarətçi-müəllim, 511 buraxılış rejimi əməkdaşı, 161 bina nümayəndəsi ayrılıb. Naxçıvan Muxtar Respublikasında III ixtisas qrupu üzrə 727, II ixtisas qrupu üzrə 922 abituriyent imtahan verib. İmtahanların keçirilməsi üçün, ümumilikdə, 6 imtahan binası, 136 imtahan zalı, 21 rəhbər, 177 nəzarətçi ayrılıb. İmtahanlar saat $10^{00}$-da başlanıb və 3 saat davam edib.

**Xəbərlər şöbəsi**

## Cari ilin 6 ayı ərzində 200-ə yaxın elektron imza sertifikatı verilib

Elektron hökumətin əsas atributlarından sayılan elektron imza muxtar respublikada da uğurla tətbiq edilməkdədir. Belə ki, 2023-cü ilin yanvar-iyun ayları ərzində 1-i vətəndaş, 5-i sahibkar, 30-u hüquqi şəxs, 163-ü dövlət qurumu olmaqla, ümumilikdə, 199 elektron imza sertifikatı qanunvericilikdə nəzərdə tutulmuş qaydada hazırlanaraq aidiyyəti üzrə istifadəçilərə təqdim edilib.

Vətəndaşların nəzərinə çatdırılır ki, elektron imzadan bütün vətəndaşlar, o cümlədən dövlət orqanları, fiziki və hüquqi şəxslər istifadə edə bilərlər. İmzanı almaq üçün qanunvericiliklə müəyyən olunmuş sənədlər Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinə təqdim olunmalıdır. Sertifikat əldə etmək üçün ödəniləcək dövlət rüsumu hüquqi şəxslər üçün 72 AZN, dövlət qurumları üçün 58 AZN, sahibkarlar üçün 36 AZN, vətəndaşlar üçün 18 AZN təşkil edir, istifadə müddəti isə 3 ildir. Elektron imza və ondan istifadə qaydaları barədə ətraflı məlumatları *nmincom.gov.az* və ya *token.sima.az* saytı vasitəsilə əldə etmək olar.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan karateçisi beynəlxalq turnirin mükafatçısı olub



Türkiyədə Çanaqqala Open Beynəlxalq Karate Turniri keçirilib. Yarışda böyüklər, uşaq, yeniyetmə, gənclər olmaqla, 1000-dən çox idmançı fərdi və komanda tipli yarışların medalları uğrunda mübarizə aparıb. Naxçıvan Karate-do Federasiyasının idmançısı Rafiq Hüseynli də bu yarışda öz bacarığını nümayiş etdirib.

12 yaşlılar arasında çıxış edən Rafiq kumite yarışında 52 kiloqram çəki dərəcəsi üzrə uğurlu nəticəyə nail olub. Təmsilçimiz gümüş medala layiq görülüb.

Qeyd edək ki, dünya və Avropa çempionu olmağı bacaran yeniyetmə idmançımız ölkə və beynəlxalq miqyaslı yarışların da qalib və mükafatçısıdır.

## Gənclər üçün istirahət düşərgəsi təşkil edilib



Muxtar respublikada gənclərin asudə vaxtını səmərəli təşkil etmək və istirahət etmələrinə şərait yaratmaq məqsədilə Ağbulaq İstirahət Mərkəzində “Yay məktəbi” təşkil olunub. Gənclər və İdman Nazirliyi, Həmkarlar İttifaqları Şurası tərəfindən birgə təşkil olunan 2 günlük düşərgədə, ümumilikdə, 50 gənc iştirak edib. Proqrama əsasən 2 gün ərzində müxtəlif idman oyunları, intellektual yarışma, bədii gecə, stolüstü oyunlar, həmçinin Ağbulaq kəndi ərazisinə gəzinti təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 10 iyul 2023-cü il tarixə taxıl biçininin gedişinə dair məlumat

| S/s | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner/ hektar) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 689 | 448,2 | 1010,2 | 22,5 |
| 2. | Şərur rayonu | 4189 | 1588,5 | 5675,1 | 35,7 |
| 3. | Babək rayonu | 6886 | 3929 | 7858 | 20 |
| 4. | Ordubad rayonu | 856 | 836 | 1168 | 14 |
| 5. | Culfa rayonu | 2181 | 1472 | 2053,7 | 14 |
| 6. | Kəngərli rayonu | 3780 | 2867 | 6873 | 24 |
| 7. | Şahbuz rayonu | 756 | 36 | 34,8 | 9.7 |
| 8. | Sədərək rayonu | 1910 | 1440 | 5202 | 36.1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **21247** | **12616.7** | **29874.8** | **23,7** |

### *İtmişdir*

Abbasov Həmzə Abbas oğlunun adına olan 67 BJ 719 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayon, Zeynəddin kənd sakini Məmmədov Hüseyn Məhəmməd oğlunun adına olan JN-12[A] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 417